GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY
www.qurtulush.se
qurtulush.partiyasi@gmail.com

# Pro. Zehtabinin işkəncə olmasının şəkilləri!

## Güney Azərbaycan Qurtuluş Partiyası tərəfindən ilk dəfə olaraq yayınlanır.

**Dr. Zehtabi mənim müəllimim olmuşdur. Ə.Elçibəy**

Onun hər sözü bir devrim, bir qurtuluş, bir fırtana kimi Fars rejiminin bağrını dəlirdi. O, Azərbaycan Türk gəncliyinin ilham qaynağı, beyin fırtınası və qurtuluş carçısı idi. Hər sözü bir olay yaradırdı. Tarixə baxışının özəlliyi ilə gəncliyimiz Türkçüləşdi. Dərin düşüncə alanı, sonsuz dərəcə alçaqkönül olması, bəzən güldürən, zəmanında isə qəzəbləndirən, dünya malından bütünlüklə uzaq gəzən böyük bir soydaşın millət sarından bu qədər sevilməsi rejimin çilədən çıxmasına nədən olmuşdur. “Millətin azad olunmasının ən əsas şərti dil azadlığıdır!” diyən Şəhid Zehtabi hər an rejim tərəfindən güdümlənirdi. Onun gecə-gündüz bilmədən davam edən tarix və dil kilasları Güneyin ən izdihamlı və iztirablı toplantısı olmuşdur. Xəstə canıyla hər gün 55 kilometr Şəbüstər-Təbriz yolunu mini busla geçərək Təbrizə gəlməsi və həman gün axşam yenə Şəbüstərə qayıtması başlı-başına inanılmaz milli iradənin simgəsi idi. O, gəncliyin ayaqlanması uğrunda canından belə geçməkdən çəkinmədi. Hər gün keçdikdə Güneyin ayaqlanmaqda olan Milli Hərəkatının düşüncə mərkəzinə çevrilməkdə olan Böyük Şəhidin rejim tərəfindən aradan qaldırılması planı, onun almaniyadan qayıtması günlərə təsadif etdi. Şəhid, Almandan dönər-dönməz S.M və U.E- ləri Şəbüstərə çağırdı. O, sankı şəhid olacağını duymuş kimi, gec olmadan Avrupa görüşlərini və son nəsiyyətlərini bu iki gənc vasitəsilə millətə çatdırmaq istəyirdi. Nə yazıq ki, iki gəncmiz yalnız onun ölmüş və ölmədən öncə şiddətli işkəncə olmuş durumuyla qarşılaşdılar. Onu öldürənlər, onun ailəsini və sevənlərini də təhdid olmuş duruma saldılar. Saldırqan farsçı rejimin cahil məmurları onun anıdan ürək infaktından ölməsini yayarkən hər hansı etiraz səsinin boğulmasının tapışırığını da vermişdir. 10-il bu acı olaydan keçdi. Güney

Azərbaycan Qurtuluş Partiyası (vaxtıyla Azərbaycan Qurtuluş Təşkilatı) özünün tarixsəl görəvi olaraq bu olayın bir qətl olmasını açıqcasına bəyan etdi. Təbrizdə yayılan bildirişdə deyilir: ***"Fars şovinizminin bütün inkarlarına rəğmən bizim böyük ustadımız şəhid edilibdir. Bu haqda əlimizdə olan kifayət qədər sənədimiz var!"*** Biz, bu sənədləri bir çox nədənlərə görə üzə çıxarmadıq. Çünki, Qurtuluş Partiyasına görə, Azərbaycan Türk Millətinin hər bir millətçi gənci, dəyişməz bir milli varlıq və gələcək Vətənin bir öndəri və öyrətmənidir. Biz bu sənədlərlə kimsənin yaşamını təhlükəyə atamayıq! Belə davranış Bizim dünya gürüşümüzlə ayqırıdır. Bu nədəndən 10 il dözdük. O acı olayın ilk tanıqları rejimin basqı dayrəsindən çıxar-çıxmaz, bu şəkillərin ortaya çıxması məsləhət göründü. Bu üzdən, Pro.Zehtabinin neçə işkəncə olduğunu göstərən şəkillər yayılmaqdadır. Bu şəkillərə görə, qatil rejimin İttilaat adamlarının Dr.ə işkəncə verdikləri və sonra onun köksünə darba endirmələri aydıncasına görünməkdədir. Şəkillərdə Şəhid Zehtabinin üzünə, ağızına və köksünə vurulan zərbələrin yeri və axar qanları tam-tamına aşkardır.
Rejim, bizim sevgili insanımızı bizdən almaqla rahat bir nəfəs çəkdi. Ancaq 2006- may ayaqlanmasında saysız Zehtabilərin üzə çıxmasıyla *"Zehtabilər ölməz Millət yaradar"* deyiminin nə qədər düzgün olduğunu isbatladı.
Zehtabilərin qanı yerdə qalmaz.

**Güney Azərbaycan Qurtuluş Partiyası**
**Yayım Bölümü**
**2008-12-24**

# PROF. M.T. Zehtabinin İŞKƏNCƏ ALTINDA ŞƏHİD OLMASININ DANILMAZ İZLƏRİ!

## GÜNEY AZƏRBAYCAN ŞƏBÜSTƏR ŞƏHƏRİ

## 1998-12-20


Güney Azərbaycan Qurtuluş Partiyası


Güney Azərbaycan Qurtuluş Partiyası


Güney Azərbaycan Qurtluş Partiyası


Güney Azərbaycan Qurtuluş Partiyası